# Heç bir cinayətkar cəzasız qalmayacaq

**Vaxtilə yüz minlərlə azərbaycanlıya yurd itkisi yaşadan, əli günahsız insanların qanına bulaşmış erməni cəlladları Vətən müharibəsindən sonra ard-arda həbs olunur, qandallanaraq Bakıya gətirilirlər. Görünən odur ki, azərbaycanlılara qarşı müxtəlif təxribatlar, soyqırımı və qətliamlar törədənlərin hər biri layiqli cəzalarını alacaqlar. Onların hər birinə Azərbaycanda hələ illər öncə cinayət işi açılıb.**



Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında qeyd etdi ki, otuz il ərzində Azərbaycana qarşı törətdikləri cinayətlərə görə xunta rejiminin bütün nümayəndələri cinayət məsuliyyəti daşıyırlar. Ərazilərimizdə soyqırımlar törədən, indiyə qədər hətta məzarı belə tapılmayan əsir və girovlara işgəncələr verən bu rejimin rəhbərləri və iştirakçıları mütləq şəkildə cinayət məsuliyyətinə cəlb edilməlidirlər.

"Müvafiq dövlət strukturları bu istiqamətdə öz işlərini ən yüksək səviyyədə qurublar, uzun illərdir ki, həmin cinayətkarların əksəriyyəti interpolda axtarışdadır. Təbii ki, həmin müharibə canilərindən saxlanılan və cinayət məsuliyyətinə cəlb olunanlar var idi. Postmüharibə dövründə də Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsindən qaçmağa cəhd edən bir sıra cinayətkarlar həbs olunublar. Onların arasında vaxtilə özlərinə müxtəlif qondarma vəzifələr təyin etmiş və üzərlərinə əmr vermək səlahiyyəti götürən "prezident"lər, "baş nazir"lər də var. Yəni vaxtilə birbaşa Azərbaycan dövlətinə, dövlətçiliyimizə təhdid yağdıranların əlləri indi qandallıdır. Həmin ermənilər xalqımıza qarşı törədilən bütün cinayətlərin səbəbkarı, icraçısı və ya əmr verəni olublar", - deyə deputat bildirib.

Arzu Nağıyevin sözlərinə görə, dünyanın hansı bucağında gizlənsələr də, Azərbaycan xalqına qarşı cinayət törədənlər həbs ediləcək və layiqli cəzalarını alacaqlar. Son vaxtlar müharibə canilərinin saxlanılması onların lazımi şəkildə cəzalandırılacağına əminlik yaradır. İstintaq əməliyyatları onların cinayət əməllərini təsdiqləyəcək. Bütün proseslər hüquqi müstəvidə getdiyinə görə bizə bu mənada beynəlxalq səviyyədə hər hansısa irad tutulmasının mənası yoxdur.

Deputat qeyd edib ki, Ruben Vardanyan, Vaqif Xaçaturyan və Arayik Harutyunyan kimi müharibə canilərinin həbsi digər cinayətkarlara və ümumilikdə Ermənistan hökumətinə dərs olmalıdır: "Vaxtilə səhra komandirləri olan, sonra isə Ermənistanda yüksək postlar ələ keçirən Sarkisyan və Koçaryan da cəzasız qalmayacaqlar. Unutmaq olmaz ki, bu məsələdə heç kimə güzəşt yoxdur. Nəinki özləri, heç çox güvəndikləri havadarları da onlara bu işdə kömək edə bilməyəcəklər".

***N.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 6 oktyabr.- S.6.